AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU

ISSN 2663-4414 (Print)
ISSN 2709 – 0762 (E-Print)

# MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ

BEYNƏLXALQ ELMİ JURNAL



**AZƏRBAYCAN-ÖZBƏK ƏDƏBİ ƏLAQƏLƏRİ**
XÜSUSİ BURAXILIŞ

## COMPARATIVE LITERATURE STUDIES

**INTERNATIONAL SCIENTIFIC JOURNAL**
SPECIAL ISSUE

**BAKI – 2020, № 1**

# Əlişir Nəvainin hikmətləri

**Siracəddin Hacı**
Filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi
adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: siraceddin-haci@rambler.ru
https://orcid.org/0000-0003-1981-025X

**Annotasiya.** Məqalədə Əlişir Nəvainin hikmətlərinin qaynaqları açıqlanmış, üç qaynaq göstərilmişdir: İslam mədəniyyəti, türk-islam ədəbiyyatı, türk folkloru. Müəllif Əlişir Nəvainin hikmətlərinin bədii özəlliklərini, dil, üslub xüsusiyyətlərini təhlil etmişdir. Məqalədə Əlişir Nəvainin söz, elm, ana və ata sevgisi, birlik, vəfa, ağıl, igidlik, eşq, aşiqlik, iman, sərvət, paylaşma, mərhəmət, səbir, dünya, axirət, tamah, ədalət, zülm, dost, düşmən, ləyaqət, qocalıq, təkəbbür, ədəb kimi məsələlərlə bağlı hikmətləri şərh olunmuşdur.
**Açar sözlər:** Əlişir Nəvai, hikmət, söz, elm, sərvət, insan, səbir

http://dx.doi.org/10.29228/edu.163
**Məqaləyə istinad:** Hacı S. (2020) *Əlişir Nəvainin hikmətləri.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 92-98
**Məqalə tarixçəsi:** göndərilib – 13.04.2020; qəbul edilib – 21.04.2020

# Wise words of Alishir Navoi

**Sirajeddin Haji**
Doctor of Philosophy in Philology, Institute of Literature
named after Nizami Ganjavi.
Azerbaijan. E-mail: siraceddin-haci@rambler.ru
https://orcid.org/0000-0003-1981-025X

**Abstract.** In the article the sources of Alishir Navai's wisdom are explained and three sources are shown: Islam culture, Turkic-Islam literature, Turkic folklore. The author has shown the artistic features, language and style characters of Alishir Navai's wisdom. In the article some problems such as word, science, love of parents, unity, devotion, mind, bravery, love, infatuation, faith, wealth, sharing, mercy, patience, world, hereafter, mercenary, justice, oppression, friend, enemy, dignity, old age, arrogance, decency, etc. are explained in Alishir Navai's wisdom.
**Keywords:** Alishir Navai, wisdom, word, science, wealth, human, patience

http://dx.doi.org/10.29228/edu.163
**To cite this article:** Haji S. (2020) *Wise words of Alishir Navoi.* «Comparative Literature Studies», Issue I, pp. 92-98
**Article history:** received – 13.04.2020; accepted – 21.04.2020

## Giriş / *Introduction*

Özbək türk ədəbiyyatının dahi irfan şairi, dəyərli alim, böyük dövlət xadimi, dilçi, filosof, arif, tərcüməçi Əmir Əlişir Nəvainin (1441-1501) hikmətləri "Xəmsə"sinə daxil olan əsərlərindən toplanmış, öncə üç dildə – özbəkcə, farsca, ərəbcə Daşkənddə [1], sonra Azərbaycan türkcəsində Bakıda çap olunmuşdur [2].

Şairin hikmətlərinin əhatə etdiyi mövzuları belə qruplaşdırmaq olar: sözün dəyəri, ana, ata sevgisi, birlik, elm, alim, vəfa, ağıl, hikmət, igidlik, eşq, aşiqlik, saleh əməl, iman, paylaşma, səbir, dünya, axirət, səxavət, tamah, halallıq, yaxşılıq, pislik, sağlamlıq, kin, paxıllıq, doğruluq, insan çeşidləri, ədalət, zülm, dost, düşmən, ləyaqət, gənclik, qocalıq, təkəbbür, ədəb...

## Əsas hissə / *Main Part*

Əlişir Nəvai yuxarıda saydığımız məsələlərlə bağlı önəmli ölçülər vermişdir. Onun hikmətlərinin bir sıra qaynaqları var: şair hər şeydən öncə islami dəyərləri əsas götürmüşdür, aydın olur ki, o, Qurani-Kərimi, Allah Rəsulunun hədislərini dərindən bilir. Onun hikmətlərinin ikinci qaynağı zəngin türk-islam ədəbiyyatı, fəlsəfəsi, mədəniyyətidir.

Üçüncü qaynaq dəyərlərlə zəngin türk folkloru, etnoqrafiyasıdır. Şair bir sıra türk ata sözünün məzmununu olduğu kimi almış, onlara yeni bədii don biçərək mətnə məqsədəuyğun mənalar yükləmişdir.

Əlişir Nəvainin hikmətlərinin bir sıra özəllikləri var. Hər şeydən öncə bu hikmətlərin mövzu dairəsi genişdir. Şair demək olar ki, həyatın bütün sahələrinə aid ölçülər qoymuş, doğru yolu göstərən sözlər söyləmişdir.

Şairin hikmətlərinin ikinci özəlliyi də var, belə ki, biz bu hikmətlərdən Əlişir Nəvainin dərin alim, böyük filosof, güclü məntiq sahibi olduğunu öyrənir, insani kimliyini tanıyırıq. O, insanı çox sevir, ədalətli və mərhəmətlidir, insanları xeyirli işlərə təşviq edir, pisliklərdən çəkindirir, yoxsullara, kimsəsizlərə, yetimlərə, möhtaclara yardıma çağırır, deyir ki, siz məzlumların əlindən tutun ki, uca Allah da sizin əlinizdən tutsun. Əlişir Nəvai hikmətlərində insana iki dünya təsəvvürü verir, önəmlə vurğulayır ki, insan bu dünyada əkdiyini axirətdə biçəcək.

Əlişir Nəvainin hikmətlərinin üçüncü özəlliyi də var. Şair öyüd və nəsihətlərini zəngin məcazlarla təqdim etmiş, ideyanın (mesajın) yadda qalmasına, həyata daşınmasına yol açan obrazlara yer vermişdir.

Əlişir Nəvainin hikmətləri sırasında sözlə bağlı olanlar önəmli yer tutur. Şair deyir ki, söz insana verilmiş ilahi nemətdir, o, insanı başqa varlıqlardan seçir, ancaq insan sözün mənasını öyrənməlidir ki, faydası olsun. O, "Əvvəl düşün, sonra danış", "Sözü ağzında bişir, sonra çıxar" ata sözlərini bu biçimdə təqdim edir:

*Sözü könlündə bişirmədən dilə gətirmə,*
*Və könlündə olan hər şeyi dilə yetirmə [2, s.26].*

Əlişir Nəvai "Söz yarası qılınc yarasından acıdır" ata sözünə fərqli don biçir:

*Könül sınsa bir zəban (dil) ağrısından,*
*Ağrısı çox olar can ağrısından [2, s.27].*

Şair söz sərrafı kimdir sualına cavab verir, bu ölçünü qoyur: o, düz sözə meyil edər, ancaq hər doğru sözü demək də düz deyil.

Əlişir Nəvai yalançı adamı tanıdarkən diqqəti sözə yönəldir, deyir ki, bir adamın ki sözü yalandır, ona güvənmə, ağıllı ol, "deməli sözü de, deməməli sözü də ye".

Şair acı dili olan düşməni (doğrunu söyləyən düşməni) şirin dili olan zalım dostdan üstün tutur. Deyir ki, yalan söz insanın dəyərini itirməsinə səbəb olar:

*Kim ki özü eylədi yalan sözün,*
*El yalan sayar onun qalan sözün [2, s.19].*

Əlişir Nəvai mədəniliyin ölçüsü olaraq doğru sözü göstərir, yəni doğruları söyləyən mədəni insandır, yaxşı (doğru) söz qulağın sırğasıdır, dəyərli olmaq istəyirsənsə:

*Faydasız sözü çox söyləmə,*
*Faydalı sözə naz eləmə! [2, s.14]*

*Düz sözü yalanla bəzəmə (örtmə),*
*Pak dili yalana bulama [2, s.14]*

Əlişir Nəvainin ölçüsünə görə sözün mötəbəri, düzü, yaxşısı az olanıdır, "çox danışmaq sözü yerə vurmaqdır", çox yemək sağlamlığı, çox danışmaq da sözü öldürür:

*İzzət diləsən, az de,*
*Səhhət diləsən, az ye [2, s.18].*

Şair deyir ki, ya doğru danış, ya da sus, "düzü deyə bilməsən, yalan da danışma" [2, s.21].

Əlişir Nəvainin hikmətlərində elm, alim, cəhalət, cahil kimi məsələlər də önəmli yer tutur. O, insanları elm öyrənməyə çağırır, deyir ki, uca Allahın "oxu" əmrini yerinə yetirin, məqsədiniz elm öyrənmək olsun, o, sizə varlığın həqiqətini tanıdacaq, iki dünyanın səadət qapısının açarı elmdir. Şairə görə elm öyrənməyin, həqiqi alim olmağın əsaslarından biri səbirdir:

*Az-az (addım-addım) öyrənən sonda azman olar,*
*Damla-damla toplanan ümman olar [2, s.13].*

*Səbir ilə çox düyünlər açılar,*
*Tələsəndə hədər yerə qaçılar [2, s.26].*

Şair hikmətlərində elm öyrənməyin, alim olmağın ikinci şərtini də açıqlayır: bilmədiyini bilənlərdən soruş, utanma, təkəbbürlü olma, hər şeyi bilirəm demə, hər şeyi bildiyini düşünürsənsə, bil ki, elmə marağın ölmüş (öyrənməyin əsası maraqdır), inkişafın dayanmışdır:

*Bilmədiyin soruşub öyrənən alimdir,*
*Ar edib soruşmayan özünə zalımdır [2, s.13].*

Şairin elm öyrənmək, alim olmaqla bağlı üçüncü ölçüsü budur: elmi gəncliyində öyrən, "elm xəzinəsini gəncliyində doldur" [2, s.24].

Əlişir Nəvainin dördüncü ölçüsünə görə elm öyrənməyin, alim olmağın əsası düşüncədir, düşünməyi öyrənməkdir. Düşünməyin yolu da bilgilər, varlıqlar arasında doğru əlaqə qurmaq, nəticə çıxarmaqdır:

*İnsan oğlu hansı arzusuna çatmışsa,*
*Bunu təfəkkürlə etmişdir [2, s.14].*

Şair deyir ki, elm öyrənmək istəyirsənsə, ancaq öz ağlına arxayın olma, məsləhət yolunu seç, araşdır, soruş, elm məclislərinə get, hər gün yeni şeylər öyrən, çox oxu, oxuduğunu anlayaraq qazanca çevir.

Əlişir Nəvai insanları elmə təşviq etmək üçün yollar seçmişdir. Öncə elmin dəyərini anlatmış, İslam dininin elmə çox dəyər verdiyini açıqlamış, Allah Rəsulunun bir hədisini bədii dillə ifadə etmişdir:

*Kim sənə bir hərf oxutdu haqq üçün zəhmət ilə,*
*Ödəmək asan deyil, haqqın min sərvət ilə [2, s.14].*

Şairin insanları elm öyrənməyə təşviqinin ikinci yolu cəhalətin faciəsini göstərməkdir. O deyir ki, bütün pisliklərin səbəbi cəhalətdir. Cəhalət özünü, həqiqəti tanımamaq, həddini bilməməkdir. Şair cahil adamın əlamətlərini sayır: təkəbbürlüdür, xeyirlə şəri seçmək imkanını itirmişdir, doğru sözü dinləməz, məsləhətə ehtiyac duymaz, ehtiyacsız olduğunu düşünər, insanları xor görər... Sən cəhalət və cahillərdən qaç:

*Kim ki cəhalət əhlinə yar olur,*
*Onun işi daim ahu-zar olur[2, s.23].*

Əlişir Nəvainin ölçüsünə görə, cahil pisliklərə, harama, zülmə bulaşmış adamdır, ancaq yaxşılıqla yaxanı onun əlindən qurtara bilərsən.

Şairin insanları elmə təşviqinin üçüncü yolu da var. O, hikmətlərində alimlə cahili müqayisə edir:

*Nə qalsa dünyada arifdən qalar,*
*Cahilin işi hey qalmaqal olar[2, s.22].*

*Bir avam təbibin ki şagirdi cəlladdır,*
*Biri zəhər, biri qılıncla "dad-fəryad"dır [2, s.22].*

Əlişir Nəvai hikmətlərində alimə tərif vermişdir: o, doğrunu (həqiqəti) bilən, bildiyi ilə əməl edəndir.

Əlişir Nəvainin hikmətlərində önəmli yer tutan məsələlərdən biri də səxavətdir. O, insanın sərvət təsəvvürünü inşa edən ölçülər qoymuşdur: sərvət mülkiyyət deyil, uca Allahın əmanətidir, yığdığın deyil, payladığın sənindir, halalından qazan, halal işlərə xərclə, sərvətinin üzərində yoxsulların haqqı olduğunu bil, xəsis olma, israf etmə:

*Xəzinə xeyirə olmasa yoldaş,*
*Onun ləbindən yaxşıdır qara daş [2, s.15].*

*Böyüklük səxavətdən bir nişanə(dir),*
*Səxavətsizi alçaldar zəmanə [2, s.16].*

*Kim ki səxavət əhdinə sadiqdir,*
*Həqiqi insan adına layiqdir[2, s.16].*

Əlişir Nəvai sərvətin halal olmasına çox önəm verir, haram qazancın insanın və cəmiyyətin əxlaqını pozacağını söyləyir, "halal zəhmətlə qazanılan bir şahının müftə gələn xəzinədən yaxşı olduğunu" deyir:

*Halal deyil şəfası, tikəsi də,*
*Nadürüstün əyridir kölgəsi də [2, s.21].*

*Bir quşun səxavətidirsə qanadı,*
*Yuvasına sonsuzdur iltifatı [2, s.21].*

Yəni bir quş min bir zəhmətlə topladığı qidanı ana qayğısına möhtac olan balaları ilə paylaşdığı kimi, insan da əməyi ilə qazandığı halal sərvəti ehtiyac sahibləri ilə paylaşmalı, şəfqət, mərhəmət, ədalət, qardaşlıq duyğularını gücləndirməlidir.

Əlişir Nəvainin hikmətlərinin bir mövzusu da insanlıqdır. Şair bu məsələnin şərhində öncə insanın bu dünyadakı varlıq səbəbini izah edir, deyir ki, ey insan, sən yer üzünün xəlifəsisən, vəzifən xeyiri, bərəkəti, mərhəməti, ədaləti çoxaltmaq, insanları pis işlərdən çəkindirib, yaxşı işlərə yönəltməkdir. O, özünün bu dünyadakı varlıq səbəbini belə açıqlayır:

*Nə yarlıq, nə aşiqlik həvəsimdir,*
*Əgər insan olsam, mənim bəsimdir[2, s.14].*

Əlişir Nəvai hikmətlərində insanlığın əlamətlərini sayır, birinci sıraya düzlüyü qoyur:

*Əgər düzdürsə, bir kimsənin işi,*
*Onun tərif ilə axı nə işi?[2, s.15]*

Şair deyir ki, insanlıq başqasına zərər verməməkdir, kim zülm edirsə, onun qəlbi yoxdur. O, insanları iki yerə ayırır: yaxşılar və pislər. Onlar arasındakı fərqi göstərmək üçün meyvə obrazını seçir, meyvənin qabığı və içi var, pis insanlar qabıq, yaxşı insanlar içdir.

Əlişir Nəvainin ölçüsünə görə ləyaqət, ədəb, vəfa, həya insanlığın əsaslarıdır:

*Ləyaqət tapmaz ədəbsiz adamlar,*
*Fələyin çərxi onları alçaldar [2, s.22].*

*Vəfasızda həya yox,*
*Həyasızda vəfa yox [2, s.13].*

Əlişir Nəvai insana müraciət edir, insanların havası, suyu, dərmanı, qidası ol, elin qəmini çəkməyənin insanlıqda payı yoxdur. Şair ideyanın ifadəsi üçün "Özün üçün istəmədiyini başqası üçün də istəmə" ata sözünü bu biçimdə təqdim edir:

*Özgəsinə görmə rəva heç nəyi,*
*Özünə heç rəva görmədiyin şeyi [2, s.26].*

Əlişir Nəvai mərdliyi insanlığın ən önəmli göstəricilərindən biri kimi tanıdır. Şairə görə mərdliyin bəzəyi ağıl və hikmətdir. Mərd insan təmənna ilə iş görməz, o, acları doyurar, geyindirər, kimsəsizlərin əlindən tutar, onları darda qoymaz:

*Mərd adam hər zaman bilər yerini,*
*Etdiyi mindirsə, deməz birini[2, s.19].*

Əlişir Nəvai hikmətlərində yaxşılıq və pislik anlayışlarının tərifini vermişdir. Şair çox zaman bu iki anlayışı bir yerdə izah edir ki, həqiqət açıq biçimdə ortaya çıxsın. O, insana öyüd verir:

yaxşılıqla pislik arasında tərəddüd etmə, yaxşını seç, yoxsa iki gəmidən yapışan qərq olduğu kimi, sən də həlak olarsan. Şair yaxşılıq və pisliyin nəticəsini açıqlamaq üçün “Nə əkərsən, onu biçərsən” ata sözündən bu biçimdə yararlanmışdır:

*Bibər əkən kəs acı bibər tapar,*
*Şəkər qamışı əkən şəkər tapar [2, s.24].*

*Adam möhür içrə nəyi gəzdirsə,*
*Vərəqdə də üzə çıxar o nəsnə [2, s.24].*

*Kimsə nə vaxt torpağa əksə buğda,*
*Ola bilməz ki, sonda yığsın arpa [2, s.24].*

Əlişir Nəvai yaxşılıq və pislik anlayışlarına tərif verərkən “Özgəyə quyu qazan özü düşər” atalar sözündən də istifadə edir:

*Kim ki quyu qazsa özgəyə əgər,*
*Qazdığı quyuya o özü düşər [2, s.28].*

Əlişir Nəvai deyir ki, minnət qoymaq yaxşılığın savabını yox edər, kin duyğusu pisliyi çoxaldar, yaxşılıq könül rahatlığıdır, o, insana hüzur verər, tamah insanı yoldan çıxarar, rüsvay edər, çox yemək fitrəti pozar...

Əlişir Nəvainin hikmətlərinin dili məcazlarla zəngindir, o, ideyanın anlaşılması üçün xalq deyimlərinə yer vermiş, yaddaqalan obrazlar seçmişdir. Şair fikrini sadə bir dillə ifadə etmək üçün bu ata sözlərinin forma və məzmunundan yararlanmışdır: “Tək əldən səs çıxmaz”, “Dama-dama göl olar”, “Nə əkərsən, onu biçərsən”, “Özgəyə quyu qazan özü düşər”, “Artıq tamah baş yarar”, “Tələsən təndirə düşər”, “Əvvəl düşün, sonra danış”, “Qılınc yarası sağalar, söz yarası sağalmaz”, “Sözü ağzında bişir, sonra çıxar”, “Yaxşılıq et, at dəryaya, balıq bilməsə də, Xaliq (Yaradan) bilər”.

## Nəticə / *Conclusion*

Bir məqalədə Əlişir Nəvainin bütün hikmətlərini təhlil etmək imkansızdır. Nəticə olaraq, onu deyə bilərik ki, şairin hikmətləri türk mədəniyyətinin ayrılmaz bir parçasıdır, içində dəyərlər var. Bu dəyərlər varlığı, insanı, həqiqəti tanımaq üçün önəmli ölçülər verir.

## Ədəbiyyat / *References*

1. Alişer Navoiy. Xikmatlari. Toşkent, 2019.
2. Əlişir Nəvai. Hikmətli sözlər. Bakı, 2020.

## Мудрые слова Алишира Навои

**Сираджеддин Гаджи**
Доктор философии по филологии, Институт Литературы имени Низами Гянджеви. Азербайджан.
E-mail: siraceddin-haci@rambler.ru

**Резюме.** В статье раскрываются источники мудрых изречений Алишира Навои и упоминаются три источника: исламская культура, тюрко-исламская литература и тюркский фольклор. Автор исследовал художественные особенности языка и стиля крылатых слов Алишира Навои. В статье были проанализированы мудрые изречения Алишира Навои про слово, науку, родительскую любовь, единство, верность, мудрость, храбрость, любовь, веру, богатство, доброту, милосердие, терпение, мир, потусторонний мир, жадность, справедливость, угнетение, дружбу, вражду, достоинство, старость, высокомерие и порядочность.
**Ключевые слова:** Алишир Навои, мудрость, слово, наука, богатство, человек, терпение